ELM VƏ ALİ TƏHSİL ÜZRƏ
DÖVLƏT AGENTLİYİ

# Qırğız-Türk Manas Universitetinin 2024-2025-ci tədris ili üçün təqaüd proqramı



Qırğız-Türk Manas Universiteti 2024-2025-ci tədris ilində bakalavriat səviyyəsində təhsil almaq istəyən Azərbaycan Respublikası vətəndaşları üçün təqaüd proqramı elan edir.

**Təqaüd proqramı çərçivəsində nəzərdə tutulan imkanlar:**

- Ödənişsiz təhsil;
- Aylıq təqaüd;
- Tələbə yataqxanalarında yerləşmə imkanı;
- 24/7 Universitet Sağlamlıq Mərkəzi tərəfindən sağlamlıq xidmətlərinin göstərilməsi.

**Müraciət üçün tələb olunan sənədlər:**

- Pasport və ya şəxsiyyət vəsiqəsi;
- Attestat;
- DİM tərəfindən keçirilən ali məktəbə qəbul imtahanının nəticəsi (ən azı 350 bal).

**Qeyd:** İmtahan nəticəsini göstərən sənədi olmayan namizədlər KTMU-ÖSYM (Qırğız-Türk Manas Universiteti – Ölçmə, Seçmə və Yerləşdirmə Mərkəzi) tərəfindən təşkil edilən yazılı imtahanda iştirak edəcəklər.

**İmtahan və qiymətləndirmə:**

- DİM-in təşkil etdiyi imtahan nəticəsi olmayan namizəd KTMU-ÖSYM tərəfindən 22 iyul 2024-cü il tarixində təşkil edilən yazılı imtahanda iştirak edəcək.
- İmtahan nəticəsini göstərən sənədi olan namizədlər öz istəyi ilə KTMU-ÖSYM tərəfindən təşkil edilən yazılı imtahanda da iştirak edə bilərlər.
- 23-24 iyul 2024-cü il tarixlərində KTMU-ÖSYM komissiyası tərəfindən bütün namizədlər üçün şifahi imtahan keçiriləcək. Şifahi imtahan üzbəüz və ya onlayn şəkildə keçirilə bilər. Şifahi imtahanda iştirak etməyən namizədin müvəffəqiyyət balı hesablanmır.

**Namizədin uğur balı;** Attestat balının 30%-i, Ali Təhsilə Qəbul/KTMU-ÖSYM (Qırğız-Türk Manas Universiteti – Ölçmə, Seçmə və Yerləşdirmə Mərkəzi) imtahanının 30%-i və şifahi imtahanın 40%-i nəzərə alınmaqla hesablanır.

**Tədris dili:** qırğız, türk, ingilis dili

***Qeyd:*** *Təhsilin magistratura və doktorantura səviyyələri üçün sənəd qəbulu haqqında məlumatın növbəti aylarda açıqlanması nəzərdə tutulur.*

***Ətraflı məlumat üçün: https://shorturl.at/X7PH2***

***Əlaqə: iro@manas.edu.kg***

*Təqaüd proqramına müraciət etmək üçün keçid:* ***https://shorturl.at/lAo44***

***Son müraciət tarixi: 17.07.2024***